# Tvinninq Bülleteni

BURAXILIŞ 3 AZ/16/ENI/EC/02/19 sentyabr, 2021-ci il

## GİRİŞ QEYDİ

Əziz oxucular,

AZSTAND-in Tvinninq bülleteninin üçüncü buraxılışına xoş gəlmişsiniz. Hər zamankı kimi, siz layihənin icra statusu, baş verən dəyişikliklər və cari ilin sonuna qədər keçiriləcək fəaliyyətlərlə əlaqədar qısa təsviri məlumatla tanış olacaqsınız.

May ayında layihəyə dair son Bülletenlə sizləri tanış etdikdən sonra bir çox dəyişikliklər baş vermişdir. Xüsusi Komitənin (XK) layihə irəliləyişlərinə həsr olunmuş iki iclası (III və IV) uğurla keçirilmişdir. Əsas tədbirlərdən biri o olmuşdur ki, layihə AZSTAND-in yeni rəhbəri və Benefisiarın yeni Layihə Rəhbərini qarşılamışdır. Adətən sakit keçən yay müddəti ərzində Benefisiar Konsorsiumla birlikdə layihə çərçivəsində əhəmiyyətli həcmdə işlər görmüşdür. İşin çoxu arxa fonda icra edilmişdir; layihələrin hazırlanması, tövsiyələrin icrası, sənədlər üzərində iş və Azərbaycanda Aİ-nın digər oxşar layihələri ilə daha sıx əməkdaşlığın aparılması.

Hər iki tərəf AZSTAND-in yüksək töhfəsi ilə birgə layihə məqsədlərinə vaxtında və səmərəli tərzdə nail olmaq istiqamətində böyük səylər göstərirlər. AZSTAND tərəfdaşlarının yüksək öhdəliyi və peşəkar yanaşması Konsorsium ekspertləri tərəfindən bütün missiyalarda yüksək vurğulanır. COVİD məhdudiyyətləri və çətinliklərinə baxmayaraq, cəlb olunan bütün ekspertlər bir birilə çox müsbət və səmimi münasibətlər yaratmağa nail olmuşlar ki, bu da qarşıda gələcək birgə işlərin icrasına perspektivli ümidlər verir.

Biz düzgün yoldayıq!

Berlin, Bakı, sentyabr 2021-ci il

## SON YENİLİKLƏR

AZSTAND rəhbərliyində dəyişikliklər: 2021-ci ilin may ayından etibarən cənab İlqar Həsənov AZSTAND-in yeni rəhbəri və xanım Kəmalə Məmmədzadə yeni Layihə Rəhbəri təyin olunmuşdur. Müqavilənin Əlavəsi müvafiq şəkildə tamamlanmışdır. İlk tanışlıq görüşü iyun ayında keçirilmişdir.
Üçüncü layihə rübü əsasən Texniki Komitələrə, Korporativ İdarəetmə və Maliyyə Mexanizmlərinə həsr olunmuşdur. Artıq bir neçə aydır ki, AZSTAND heyəti ingilis dilində standartlaşdırma sahəsində terminologiya mövzusunda İSO yönümlü təlimlər almaqdadır. Layihə Azərbaycanda Aİ tərəfindən maliyyələşdirilən Keyfiyyət İnfrastrukturu ilə bağlı digər layihələrlə əməkdaşlıq aparmışdır; məsələn, AZSTAND-in iki eksperti ticarətə maneələrin azaldılması mövzusunda yay məktəbində iştirak etməklə Azərbaycanın ÜTT-yə üzvlüyü prosesini dəstəkləmişdir. Layihələr arasında sıx əməkdaşlıq cəlb olunan bütün tərəflər üçün fayda gətirir və ölkədə icra edilən Aİ layihələrinin keyfiyyəti və səmərəliliyini artırır.

## İCRA

Missiyalar yaxşı icra olunmaqdadır. İşıqlandırılmalı olan nəticələrdən biri odur ki, AZSTAND İSO 9001-ə uyğun olaraq sertifikatlaşdırma üzrə qiymətləndirməyə hazırdır və QM (keyfiyyətin idarə olunması) təşkilat daxilində mühüm rol oynayır. Texniki Komitələrlə əməkdaşlıq prosesi və onların strukturu təkrar təhlil olunmuşdur. TK-larla standartlaşdırma işlərinə dair İSO-nun irad bildirmə nümunəsi və ya birləşdirmə aləti kimi bəzi praktiki vasitələr AZSTAND tərəfdaşları ilə paylaşılmışdır.

Bundan başqa, Konsorsium ekspertləri standartların İSO tələblərinə uyğun hazırlanmasında AZSTAND təşkilatını dəstəkləyirlər. Konsorsium ekspertləri həmçinin istənilən fəaliyyətdə tərəfdaşlar üçün standartlaşdırmanın dəyərinin vurğulanması vacibliyini qeyd etmişlər.



Xüsusi Komitə III, may 2021-ci il, Layihə Rəhbəri, Dr. Thomas Zielke, ekranda

Maliyyə mexanizmləri ilə əlaqədar AZSTAND-la qiyməti müəyyən etmə qaydasının yaradılması kimi standartların satışına dair müsbət təcrübə təqdim olunmuşdur. Satış siyasətinin təkmilləşdirilməsi və onun cari tələbata uyğunlaşdırılması məqsədilə AZSTAND tərəfdaşlarına SWOT təhlili nümayiş etdirilmişdir.

**Tvinninq komandası**

Denis Kaşuba – RTM
Email: denis.kaschuba.ext@ptb.de

Lalə Hüseynova - RTM Köməkçisi
Email: lala.husseynova@gmail.com
Phone: +994 70 338 58 28

Venera Mehdiyeva – Tərcüməçi
Email: venera.bakutwinning@gmail.com
Phone: +99455 312 71 91

**Icraçı partnyorlar:**

BMWi, PTB, DIN (Almaniya), SIS (İsveç), UNE (İspaniya)

Ünvan: [www.azstand.gov.az](http://www.azstand.gov.az)




Konsorsium eksperti Daniel Masso (yuxarıda soldan ikinci) və AZSTAND tərəfdaşları arasında onlayn görüş, avqust, 2021-ci il

## GÖRÜLƏCƏK İŞLƏR

Qarşıdakı aylarda ilin sonunadək layihədə əsas diqqət Milli Standartlaşdırma Strategiyası, Biznes Planı, Standartlaşdırmanın Faydaları, Rəqəmsal Transformasiya Planı və İnstitusional Yol Xəritəsinin hazırlanmasına yetiriləcəkdir.
Gündəliyin mərkəzində Bakıya Konsorsium ekspertlərinin səfəri ilə bağlı müntəzəm monitorinq və təhlilin aparılması işi qalır. 12 noyabr tarixində Bakıda keçiriləcək növbəti Xüsusi Komitə (XK) iclasına tərəfdaşlarla birgə ən azı RTM və Konsorsiumun Layihə Rəhbərinin (LR) qoşulacağı nəzərdə tutulur.

*Bu Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.*

*Bu nəşrin məzmunu Tvinninq layihəsinin RTM-i Denis Kaşubanın tam məsuliyyəti üzərinə düşür və Avropa İttifaqının rəyini əks etdirmir.*